**Tarix və onun problemləri, № 1 2014**

**TALEH ƏLIYEV**
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
***elmi işçi, dissertant***
**E-mail: taleh.ali@mail.ru**

# ZƏRDABIN TARIXI-SIYASI COĞRAFIYASI

*Açar sözlər*: Zərdab, Ucar, arxeologiya, xəritə, Əcəri
*Ключевые слова*: Зардаб, Уджар, археология, карта, Эджери
*Keywords*: Zardab, Ujar, archaeology, map, Ejeri

Şimali Azərbaycan ərazisində yerləşən müasir Zərdab rayonu tarix boyu yerli tayfaların məskunlaşdığı yerlərdən olmuşdur (Xəritə 1). Tunc dövründə bu ərazi Kür çayının sahili boyu torpaqlarla birlikdə Kür – Araz mədəniyyətinin daşıyıcılarının yurdu olmuşdur. Bunu arxeoloji və antropoloji materiallardan aydın görmək mümkündür.

E.ə. IV əsrin sonlarında Şimali Azərbaycan ərazisində Qafqaz albanlarının dövləti meydana gəlir. Müasir Zərdab ərazisi Qafqaz Albaniyasının tərkibində hazırki Ucar rayonunun ərazisi ilə birlikdə Əcəri vilayətinə daxil olmuşdur (Xəritə 2). “Alban tarixi” əsərinin müəllifi, alban tarixçisi Musa Kalankaytuklu öz əsərində Əcəri vilayətinin əkinçilik üçün yararlı olduğunu söyləyir və vilayətin əhalisinin əsasən əkinçi albanlardan, qismən də maldarlardan ibarət olduğunu yazır (1).

Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, Əcəri vilayətinin maldarları yay aylarında öz mal-qarasını Lpina və Şəki vilayətinə aparırdı. Tədqiqatlar göstərir ki, Zərdab ərazisi Əcəri vilayətinin cənub hissəsini əhatə etmişdir. Vilayətin tarixi adı isə müasir Ucar toponimində özünü qoruyub saxlamışdır. Ərazidə qeydə alınmış küp qəbirləri bir daha buranın yerli alban əhalisinə məxsus olduğunu göstərir. Qeyd etmək lazımdır ki, Zərdab ərazisi antik və erkan orta əsrlər dövrünü əhatə edən Alban Küp qəbirləri arxeoloji mədəniyyətinin tərkib hissəsidir (2).

Xilafət dövründə burada yaşayan albanlar İslamı qəbul etmiş və ərəblərin əmirlik inzibati sisteminə uyğun olaraq Azərbaycan sərhədləri daxilində yaşamışlar. Qeyd edək ki, Ərəb Xilafəti zamanında Azərbaycan torpaqlarının tarixi sərhəddi şimalda Dərbənd keçidi, cənubda isə Həmədan – Qəzvin ərazisi hesab olunmuşdur. Ərəb Xilafətinin zəifləməsi nəticəsində Kürdən Dərbəndə qədər olan ərazilərdə Şirvanşahlar dövləti yaranır və Zərdab ərazisi XVI əsrin 30-cu illərinin sonuna kimi bu dövlətin tərkibində olmuşdur (Xəritə 3). Həmin dövrdə ərazidə ayrı-ayrı yaşayış məskənləri mövcud olmuşdur. Lakin qeyd olunan dövrdə - XI – XIII əsrlərdə ərazi Səlcuq imperiyası və Azərbaycan Atabəylər dövlətinə tabe edilmiş, XIII əsrin II yarısı və XIV əsrdə isə Hülakü və Cəlairi dövlətlərindən asılı hala düşmüşdür. Ərazidən Atabəylər (Eldənizlər) dövrünə aid mis pullar da tapılmışdır. XIV əsr Hülakü mənbələrində adı çəkilən Delan Naur (70 göl) ərazisinin qərb hissəsi məhz Zərdab torpaqlarıdır (3).

Tarixi qaynaqlarda Zərdab adına ilk dəfə XV əsr Ağqoyunlu dövrü mənbələrində rast gəlinir. Rayon ərazisində yerləşən Əlvənd kəndi də məhz Ağqoyunlu Əlvənd Mirzənin dövründən iri yaşayış məskəninə çevrilmişdir. Belə ki 1500-cü ildə Ağqoyunlu dövlətinin Əbhər sazişinə əsasən iki yerə parçalanmasından sonra dövlətin əsas mərkəzi hesab olunan Azərbaycan torpaqları Əlvənd Mirzənin hakimiyyəti altında qaldı. Məhz bu hadisə ərəfəsində

**Tarix və onun problemləri, № 1 2014**

Ağqoyunlu mənbələri Zərdabın adını çəkir. Təbii ki bunu həm də Ağqoyunluların Şirvanşahlarla sıx əlaqə saxlaması kimi də dəyərləndirmək olar (4).

1538-ci ildə Şirvanşahlar dövlətinə Səvəfi şahı I Təhmasib tərəfindən son qoyuldu və yaranmış Şirvan bəylərbəyliyinin cənub torpaqlarına Zərdab ərazisi də məhz Zərdab adı ilə daxil olmuşdur. Ümumiyyətlə, bu vaxta qədər Səfəvi mənbələrində ərazi xatırlansa da Zərdab toponiminin adı çəkilmirdi. Məsələn, Şah I İsmayıl Cabanı döyüşündən əvvəl Şamaxıya doğru yürüş edərkən "Qoyun ülumu"ndan keçdiyi bildirilir. Yuxarıda az əvvəl qeyd etdiyimiz hadisələrdə, o cümlədən, vahid Azərbaycan Səfəvi dövlətinin yaradılması prosesində Şah I Təhmasib də bu ərazidən keçmiş və mənbələr qeyd olunan Zərdab ərazisini "Qoyun ülumu" adlandırmışdır. Belə hesab edirik ki, ərazidə maldarlığın yüksək inkişafı ilə əlaqədar bu yerlər Səfəvi tarixçiləri tərəfindən bu cür adlandırılmışdır (4).

Abdulla xan Ustaclı XVI əsrin ortalarında Şirvan bəylərbəyi olduğu zaman Zərdab ərazisindəki yaşayış məskənləri böyümüş və ərazinin mövqeyi artmışdır. Şah Məhəmməd Xudabəndənin hakimiyyəti (1578-1587) dövründə Osmanlılar Şirvan ərazisini imperiyanın tərkibinə qatır. Məhz Osmanlı mənbələri Şirvan ərazisi haqqında yazılarında Zərdabın adını qeyd edirlər. Şah I Abbasın hakimiyyəti zamanı bu torpaqlar yenidən Səfəvilərin ərazisinə çevrilir (Xəritə 4).

Səfəvilər dövlətinin zəiflədiyi dövrdə feodal özbaşınalıqları geniş vüsət aldığı zaman onlara qarşı yerlərdə üsyanlar baş qaldırır. Şirvan üsyançılarının əsas məntəqələrindən biri də Zərdab ərazisi olmuş, burada Müskürlü üsyançıları xüsusilə fərlənmişlər. Məhz 1724-cü il İstanbul sülhündən sonra Rusiya Hacı Davud Müskürlünü Şirvan xanı kimi tanımış və Zərdab ərazisi də onun idarə etdiyi əraziyə daxil edilmişdir. Lakin 1727-ci il Nabur sülhündən sonra əraziyə rəhbərlik rus meyilli hakim Qazıqumuxlu Surxay xanın əlinə keçmişdir. 1736-1747-ci illərdə Zərdab ərazisi bütün Azərbaycan torpaqları kimi Nadir şahın yaratdığı Əfşarlar imperiyasının tərkibində Azərbaycan vilayətinin bir hissəsi olmuşdur. Nadir şahın öldürülməsindən sonra Zərdab ərazisi Şamaxı xanlığının tərkibində olmuşdur. Bu dövrdə yenə də Zərdab və Ucar rayonlarının ərazisi birlikdə Qarasubasar mahalına daxil olmuşdur (Xəritə 5). N.Bayramova "Şamaxı xanlığı" əsərində yazır: "Qarasubasar mahalına Şilyan, I Ləki, II Ləki, Əlvənd, Muradxan, Xələc, Zərdab, Çallı və s. kəndlər daxil idi. Mahalın əhalisinin çox hissəsi əkinçiliklə məşğul olurdu". Qubalı Fətəli xan Şirvanı tabe etdikdən sonra bir müddət ərazi (1768-1790-cı illərdə) Quba xanlığının tərkib hissəsinə çevrilmişdir. Onun ölümündən sonra yenidən Şamaxı xanlığının ərazisi olmuşdur (5, 27).

Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsindən sonra bu ərazidə çar Rusiyası tərəfindən Göyçay qəzası təşkil edilmişdir (Xəritə 6). 1840-1846-cı illərdə Zərdab ərazisi Xəzər vilayətinin, 1846-1859-cu illərdə Şamaxı quberniyasının, bundan sonra isə Bakı quberniyasının tərkibinə daxil edilmişdir. XIX əsrə məxsus "Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları" adlı ayrı-ayrı buraxılışlarda Şirvan ərazisi haqqında olan qeydlərdə Zərdabın adı dəfələrlə çəkilir. Hətta 1886-cı ilə aid "Bakı quberniyasının etnoqrafik xəritəsi"ndə Zərdab ərazisində yaşayan əhalinin bütünlüklə Azərbaycan tatarları olduğu göstərilir. XIX əsr rus tarixşünaslığında Azərbaycan dilində danışan əhaili Azərbaycan tatarları adlandırılırdı. 1903-cü ilə aid "Qafqaz Hərbi dairəsinin Hərbi – Topoqrafik sahəsi" adlı xəritədə Zərdab ərazisi və bir sıra kəndlər qeyd olunmuşdur (Xəritə 7).

Azərbaycan Demokratik Respublikasının mövcud olduğu dövrdə Zərdabın ərazisi Göyçay qəzasının bir hissəsi olmuşdur (Xəritə 8 – 9). 1926-cı ilə məxsus Göyçay qəzasının etnik tərkibi haqqında cədvəldə Zərdab əhalisi bu cür idi: 99,8 % - türklər (Azərbaycan türkləri), 0,1

**Tarix və onun problemləri, № 1 2014**

% ləzgilər, 0,1 % ruslar. Azərbaycan SSR dövründə artıq Zərdab ərazisi rayon mərkəzinə çevrilmişdir. Hal-hazırda Zərdabın ərazisi 856 $km^2$-dir və 40 yaşayış məntəqəsindən ibarətdir.

## İSTIFADƏ OLUNMUŞ ƏDƏBIYYATIN SIYAHISI:


1. Musa Kalankaytuklu Alban tarixi, Bakı, Avrasiya press, 2006, 378 s.
2. Əliyev T.V.Əlican və Türyançay hövzəsinin küp qəbirləri // Tarix və onun problemləri, Bakı, 2013, № 4, s. 320-325
3. Piriyev V.Z. Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə (1316 – 1360), Bakı, “Elm” nəşriyyatı, 1978, 141 s.
4. Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası, Bakı, Müəllim, 2006, 147 s.
5. Bayramova N.Şamaxı xanlığı, Bakı, “Təhsil”, 2009, 396 s.


**ТАЛЕХ АЛИЕВ**
***Институт Археологиии Этнографии НАНА***
***Научный сотрудник, диссертант***

## ИСТОРИКО-ПОЛИТИЧЕСКАЯ ГЕОГРАФИЯ ЗАРДАБА

Статья посвящена в историко-политическую географию Зардабский регион. В статье были изучены административная история Зардаба от Бронзовый век до Советский период (1926). На территории были различные типы поселений. Зардабский регион был содержимым провинции Эджери Кавказской Албании в Античным и Раннесредневековым период. После того, как Халифат эта территория хронологический удовлетворена на государство Ширваншах, Сафафид, Шамахинская ханство (Карасубасарский магал), провинция Гекчай (1840-1933).

**TALEH ALIYEV**
***The Institute of Archaeology and Ethnography of NASA***
***scientific worker, candidate for a degree***

## THE HISTORICAL-POLITICAL GEOGRAPHY OF ZARDAB

The article has been dedicated to the historical-political geography of Zardab region. It has been studied the administrative history of Zardab from Bronze age to Soviet period (1926). There were various types of the settlements in the territory. Zardab region was the content of Ejeri province of Caucasian Albania in the Antique and Early Middle Ages period. After Caliphate this territory chronologically has been contented to Shirwanshahs, Safavids, Shamakhi khanate (Garasubasar mahal), Goychay province (1840-1933).

**Tarix və onun problemləri, № 1 2014**







**Xəritə 1. Zərdab ərazisi e.ə. VII əsrdə    Xəritə 2. Zərdab ərazisi ilk orta əsrlərdə**




**Xəritə 3. Zərdab ərazisi Şirvanşahlar dövründə**

**Tarix və onun problemləri, № 1 2014**




**Xəritə 4. Zərdab ərazisi Səfəvilər dövründə Şirvan bəylərbəyliyinin tərkibində**




**Xəritə 5. Zərdab ərazisi Şamaxı xanlığının tərkibində (Qarasubasar mahalı)**

**Tarix və onun problemləri, № 1 2014**




**Xəritə 6. Zərdab ərazisi XIX əsrin birinci yarısında Şirvan əyalətinin tərkibində**




**Xəritə 7. Zərdab ərazisi 1868 – 1917-ci illərdə**

**Tarix və onun problemləri, № 1 2014**




**Xəritə 8. Zərdab ərazisi Azərbaycan Xalq Cümhuriyyətinin dövründə**

**Tarix və onun problemləri, № 1 2014**




**Xəritə 9. Zərdab ərazisi ADR dövründə Göyçay qəzasının tərkibində**

***Rəyçilər: t.e. d. A.Məmmədov, t.e.d.Q.S.İsmayılov***

***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu "İlk orta əsrlər arxeologiyası" şöbəsinin 07.06.2013-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (pr.№06).***